# Gənclərin formalaşmasında mühüm layihə

## Tur-aksiya iştirakçılarının valideynləri ilə görüş keçirilib

*Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev "Ölkəmizi tanıyaq" tur-aksiyasında iştirak etmiş məktəblilərin valideynlərinin bir qrupunu qəbul edib. Görüşdə Səbuhi Abdullayev cənab İlham Əliyevin tövsiyəsi və Prezident Administrasiyasının təşkilatçılığı ilə artıq dördüncü ildir keçirilən tur-aksiyaların, ənənə halını aldığını bildirib.*

Rayon icra hakimiyyətinin başçısı qeyd edib ki, layihənin əsas məqsədi şagirdləri ölkəmizin müxtəlif bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri, ümummilli lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış etmək, gənclərdə cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızda gedən dinamik sosial-iqtisadi inkişaf, gündən-günə abadlaşan şəhər və rayonlarımızın yeniləşən siması barədə əyani təsəvvür yaratmaqdır.

Noyabrın 16-dan 19-dək təşkil olunan tur-aksiyada Qəbələnin 40 məktəblisinin iştirak etdiyini vurğulayan icra başçısı bildirib ki, Quba-Qusar-Xaçmaz rayonlarına səfər edən həmin məktəblilər bu bölgədə genişmiqyaslı quruculuq işləri ilə, maddi-mənəvi irsin qorunması və bərpası istiqamətində həyata keçirilən önəmli sosial layihələrlə tanış olmuş, Azərbaycanın multikultural və çoxəsrlik tolerantlıq ənənələrə malik bölgəsini gəzmişlər.

Səbuhi Abdullayev səfər çərçivəsində şagirdlərin iştirakı ilə keçirilən intellektual oyunlarda məktəblilərimizin ikinci yeri tutması və kubokla təltif edilməsi münasibətilə qrupun rəhbərinə və valideynlərə öz təşəkkürünü bildirib.

Görüş zamanı məktəblilərin intellektual oyunlarda qazandıqları kubok rayon icra hakimiyyətinin başçısına təqdim olunub.

Qrupun rəhbəri RİH-nin sektor müdiri Zahir Kərimov Qəbələ məktəblilərinin nümunəvi davranışları ilə hamının diqqətini çəkdiyini bildirib, bununla əlaqədar yerləşdikləri "Cənnət bağı" Otellər Kompleksi müdriyyətinin rayonumuzun rəhbərliyinə ünvanladığı təşəkkür məktubunu Səbuhi Abdullayevə təqdim edib.

Görüşdə çıxış edən valideynlər ölkə rəhbəri cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya "Ölkəmizi tanıyaq" tur-aksiyaları layihəsinin bütün bölgələrdə yüksək səviyyədə təşkil olunmasına görə minnətdarlıqlarını bildiriblər.

Tədbiri Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev yekunlaşdırıb.

"Qəbələ"

## Qəbələ məktəblisi Rəşad Muradov: "Bu həyatımda etdiyim ən maraqlı səyahət idi"



*"Tur-aksiya elə maraqlı idi ki, zamanın necə keçdiyini heç hiss etmədim. Amma bu müddətdə gördüklərimizə, öyrəndiklərimizə nəzər salanda aydın olur ki, qısa müddətdə çox dərin biliklərə yiyələnmişik. Quba, Qusar, Xaçmazda olduq. Bu rayonların hər birinin özünəməxsus özəlliyi var. Qəbələyə qayıdanda dostlarımla, sinif yoldaşlarımla bölüşəcək xeyli məlumat toplamışam."*

## Qrup rəhbəri Zahir Kərimov: "Tur-aksiya məktəblilərin hərtərəfli inkişafında mühüm rol oynayacaq"



*"Ölkəmizi tanıyaq" devizi ilə keçirilən tur-aksiya məktəblilərin hərtərəfli inkişafında mühüm rol oynayacaq. Ekskursiya zamanı şagirdlərimiz maariflənir, dünyagörüşlərini artırır, eyni zamanda, Azərbaycanın dilbər guşələri ilə daha yaxından tanış olurlar. Qəbələ və Qusar Böyük Qafqaz dağlarının ətəyində yerləşir, həm də qonşu rayonlardı. Amma ekskursiya zamanı şahid olduq ki, hər bir rayonun özünəməxsus zəngin tarixi, mədəniyyəti, ənənələri var. Bununla yanaşı, ayrı-ayrı rayonlarımızı, şəhərlərimizi gəzməklə Azərbaycanda gedən dinamik inkişafın nəticələrini seyr etmək mümkündür. Əminəm ki, dörd gün davam edəcək maraqlı səyahət məktəblilərin yaddaşında silinməz izlər buraxacaq".*

*Zahir Kərimov bildirib ki, şagirdlər "Şahdağ" Turizm Mərkəzinə də səfər ediblər. Kompleks növbəti qış mövsümünün açılışına hazırlaşır. Bu mərkəzə, eləcə də, Qəbələdəki "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksinə qış aylarında üz tutan turistlərin sayında hər il artım müşahidə olunur. Azərbaycan artıq bütün dünyada geniş turizm imkanları ilə tanınır.*

*"Bu gün tur-aksiyada iştirak edən məktəblilər gələcəkdə ölkəmizin inkişafı üçün əlindən gələni əsirgəməyən savadlı kadrlar olacaqlar", - deyə qrup rəhbəri qeyd edib.*

# "Ölkəmizi tanıyaq" tur-aksiyasının iştirakçıları Qəbələdə

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, noyabrın 16-dan 19-dək respublikamızın şəhər və rayonlarının IX-XI sinif şagirdləri üçün "Ölkəmizi tanıyaq" adlı növbəti maarifləndirici tur-aksiya keçirilib.***

***Qəbələ-Şəki-Zaqatala marşrutu üzrə keçirilən tur-aksiyada iştirak edən Qusar, Xaçmaz, Quba, Şabran, Siyəzən, Xızı, Göygöl, Tovuz, Ağdaş və Füzuli məktəblilərindən ibarət 10 qrupun üzvlərini noyabrın 16-da Heydər Əliyev Mərkəzinin qarşısında rayon icra hakimiyyətinin və təhsil şöbəsinin nümayəndələri qarşılayıb.***



Rayondakı "Qafqaz Karvansaray" və "Qafqaz Sport" otellərinə yerləşən şagirdlər nahar etdikdən sonra Qəbələ ilə tanış olublar.

Ümumilikdə 400 nəfər şagird və onlara rəhbərlik edən müəllimlərin iştirakı ilə əvvəlcə proqrama uyğun olaraq Dəmiraparan çayının sahilində "Ölkəmizi tanıyaq" devizi altında ağacəkmə aksiyası keçirilib. İDEA İctimai Birliyinin təşəbbüsü ilə keçirilən yaşıllaşdırma aksiyası zamanı məktəblilər 400-ə yaxın küknar, ağcaqayın və palıd ağacı əkərək onları suvarıblar.

Qəbələyə səfərin ilk günü şagirdlərin marağına səbəb olan məkanlardan biri də Nohur gölü olub. Sıx meşəlik və dağlıq ərazidə yerləşən gölün ətrafında gəzintiyə çıxan məktəblilər orada xatirə şəkilləri çəkdiriblər. Yengicə kəndindəki "Zoopark"a ekskursiya edən şagirdlərə orada bəslənilən heyvanlar barəsində ətraflı məlumat verilib. Tur-aksiya iştirakçıları üçün axşam saatlarında Qəbələ Mədəniyyət Mərkəzində vətənpərvərlik mövzusunda çəkilmiş "Cavad Xan" filmi nümayiş olunub. Film şagirdlərin böyük marağına səbəb olub.

* * *

Prezident İlham Əliyevin tapşırığına əsasən orta məktəblərin IX-XI sinif şagirdləri üçün "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyanın noyabrın 16-dan 19-dək nəzərdə tutulan növbəti mərhələsində Qəbələ-Şəki-Zaqatala marşrutu üzrə ekskursiyaya çıxan Göygöl, Tovuz, Ağdaş, Siyəzən, Füzuli, Quba, Qusar, Xaçmaz, Şabran və Xızı rayonlarının məktəbliləri noyabrın 17-18-də Qəbələnin tarixi məkanları və görməli yerləri, rayonun sosial-iqtisadi inkişafı istiqamətində görülən işlər, tarixi, mədəni irsi, adət-ənənələri, son illərdə inşa edilən sosial obyektlər, əyləncə və istirahət mərkəzləri ilə tanış olublar.

Əvvəlcə Heydər Əliyev Mərkəzini ziyarət edən şagirdlərə bildirilib ki, mərkəz yetişməkdə olan gənc nəslin doğma Vətənimizə layiqli vətəndaş kimi formalaşmasına mühüm töhfə verir. Mərkəz gündəlik fəaliyyətində uşaq, yeniyetmə və gənclərin hərtərəfli inkişafına, qabiliyyətlərinin üzə çıxarılmasına, onlarda vətənpərvərlik hislərinin yüksəldilməsinə xüsusi diqqət ayırır.





Qəbələ ilə tanışlıq zamanı növbəti ünvan "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksi olub. Məlumat verilib ki, 4 kanat xətti və 10 xizək yolu olan kompleksdə turistlərin istirahətinin təşkili üçün hər cür şəraiti olan restoranlar və beşulduzlu "Tufandağ" oteli açılıb. Dağ-xizək trası süni qaryağdıran generasiya sistemi ilə təchiz edilib və ilin bütün fəsillərində gün ərzində kompleksdə 3 min nəfərə xidmət göstərilməsi üçün şərait yaradılıb. Ümumilikdə, 4 kanat xəttinin uzunluğu 6 kilometr, 10 xizək yolunun uzunluğu isə 17 kilometrdir.

Bildirilib ki, Qəbələ rayonu həm turizm iqtisadiyyatı, multikulturalizm ənənələri, həm də tarixi məkanları ilə, eləcə də idman və mədəniyyət tədbirlərinin keçirildiyi mərkəz kimi tanınır. Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksi son illər ölkəmiz üçün yeni idman növü olan xizəkçiliyin gənclər arasında yayılmasında mühüm rol oynayır. Kompleksin xizəkçilik mərkəzi həm turizmin inkişafı, həm də yeni dağ idman növlərinin geniş yayılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Şagirdlər kanat yolu ilə uca dağların zirvəsinə qalxıb, oradan Qəbələ şəhərini və ətrafdakı çayları, meşələri seyr edib, xatirə şəkli çəkdiriblər.

Heydər Əliyev adına Konqres Mərkəzi ilə tanış olan şagirdlərə məlumat verilib ki, 1200 yerlik mərkəz üç mərtəbədən ibarətdir. Birinci mərtəbədə zallar, 350 yerlik restoran və inzibati otaqlar yerləşir. Çoxfunksiyalı 1200 yerlik konfrans zalı isə ikinci mərtəbədədir. Konfrans zalı qısa müddətə başqa məqsədlər - konsert, iclas üçün kresloların aşağı enməsi ilə müstəvi halına keçə bilir. Qeyd olunub ki, Qəbələ turizm bölgəsi olmaqla yanaşı, beynəlxalq əhəmiyyətli tədbirlərə, o cümlədən mədəniyyət, incəsənət tədbirlərinə, idman yarışlarına da uğurla ev sahibliyi edir.

(Ardı 6-cı səhifədə).